# İmmiqrasiya haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Birinci fəsil

Ümumİ müddəalar
Maddə 1. Qanunun məqsədi

Bu Qanun əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına immiqrasiyasını və bununla bağlı münasibətləri tənzimləyir.
Maddə 2. İmmiqrasiya haqqında qanunvericilik

Azərbaycan Respublikasına immiqrasiya Azərbaycan Respublikası Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, bu Qanun və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə tənzimlənir.
Maddə 3. Əsas anlayışlar

Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları daşıyır:

immiqrasiya — bu Qanunla müəyyən edilmiş qaydada əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına müvəqqəti və ya daimi yaşamağa gəlməsi;[1]

immiqrant — bu Qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikası ərazisində daimi yaşamaq üçün icazə verilmiş əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər;[2]

immiqrasiya kvotası — bir il ərzində müvafiq ölkələrdən Azərbaycan Respublikasına gəlmələrinə icazə verilən əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin sayının son həddi. [3]

İkinci fəsil

İmmİqrasİya haqqında vəsatətə baxılması
Maddə 4. İmmiqrasiya haqqında vəsatət

Azı iki il Azərbaycan Respublikasında qanuni əsaslarla müvəqqəti yaşayan 18 yaşına çatmış fəaliyyət qabiliyyəti olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında daimi yaşamaq üçün (immiqrant statusu almaq üçün) müvafiq icra hakimiyyəti orqanına vəsatət verə bilər. [4]

Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər vəsatətlərində Azərbaycan Respublikasına immiqrasiyasını əsaslandırmalıdırlar.

İmmiqrasiya haqqında vəsatətə notarial və ya ona bərabər tutulan qaydada təsdiq edilən aşağıdakı sənədlər əlavə olunur:

1) doğum haqqında şəhadətnamə və ya ona bərabər tutulan başqa sənəd;

2) ailə tərkibi haqqında (ailə üzvlərinin adı, soyadı, təvəllüdü, məşğuliyyəti, yaşadığı və ya olduğu yer göstərilməklə) arayış, nigah haqqında şəhadətnamənin surəti, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərlə immiqrasiya edən 14 yaşından 18 yaşınadək olan uşaqların immiqrasiyası haqqında yazılı razılığı;

3) immiqrant statusu almaq istəyən şəxslərin sağlamlığı haqqında arayış;[5]

4) Azərbaycan Respublikası vətəndaşı və ya Azərbaycan Respublikası ərazisində daimi yaşayan şəxs ölkədə qaldıqları vaxtda təminatı öz üzərinə götürdüyü hallar istisna olmaqla, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin və onlarla gələn ailə üzvlərinin minimal tələbatını ödəyə bilən vəsaiti olması barədə sənəd;

5) əcnəbilərin vətəndaşlığını, vətəndaşlığı olmayan şəxslərin isə vətəndaşsızlığını təsdiq edən sənəd;

6) əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin peşə ixtisasını təsdiq edən sənədlər.

Azərbaycan Respublikasına immiqrasiya haqqında vəsatətin rədd edilməsi əsaslarının mövcudluğunun müəyyən edilməsi üçün müvafiq icra hakimiyyəti orqanı tərəfindən əlavə sənədlər tələb oluna bilər.

7) Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə.[6]

8) Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə alınmasına əsas olmuş halların aradan qalxmadığını sübut edən sənədlər. [7]

9) dövlət rüsumunun ödənilməsi barədə qəbz.[8]

Maddə 5. İmmiqrasiya haqqında vəsatətə baxılması

Müvafiq icra hakimiyyəti orqanı iki ay müddətində Azərbaycan Respublikasına immiqrasiya haqqında vəsatətə baxır və qərar qəbul edir.[9]

Azərbaycan Respublikasına immiqrasiya haqqında vəsatətə baxılması qaydalarını, immiqrasiyanın növlərini və müddətlərini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.[10]

Maddə 6. (Çıxarılıb) [11]

Maddə 7. Azərbaycan Respublikasına immiqrasiya haqqında vəsatətin rədd edilməsinin əsasları

Əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına immiqrasiya haqqında vəsatəti aşağıdakı hallarda rədd edilə bilər:

1) onların immiqrasiyası Azərbaycan Respublikasının dövlət təhlükəsizliyinə və ya ictimai asayişə zərər vura biləcəyi hallarda;

2) həmin şəxslər siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən təhlükəli yoluxucu xəstəlik virusu daşıyıcısı olduqda;

3) onların şəxsiyyətini təsdiq edən sənədləri olmadıqda;

4) həmin şəxslər Azərbaycan Respublikasına immiqrasiya üçün icazə almaq məqsədi ilə saxta sənədlər və ya yalan məlumatlar təqdim etdikdə;

5) həmin şəxslər qəsdən ağır və ya xüsusilə ağır cinayət törətdiyinə görə məhkum olunduqda, əgər məhkumluqları qanunla müəyyən edilmiş qaydada ödənilməmişdirsə və ya götürülməmişdirsə;[12]

6) həmin şəxslər əvvəllər Azərbaycan Respublikası hüdudlarından çıxarıldıqda;

7) Azərbaycan Respublikası vətəndaşı və ya Azərbaycan Respublikası ərazisində daimi yaşayan şəxs təminatı öz üzərinə götürdüyü hallar istisna olmaqla, əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin və onlarla gələn ailə üzvlərinin minimal tələbatını ödəyə bilən vəsaiti olmadıqda.

8) həmin şəxslər xarici dövlətdə daimi yaşamaq üçün Azərbaycan Respublikasının ərazisini tərk etdikdə;

9) onların Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamağa icazə alması üçün əsas olmuş Azərbaycan Respublikasının vətəndaşı ilə bağlanmış nikahı etibarsız hesab edildikdə.[13]
Maddə 8. İmmiqrasiyaya icazə verilməməsi haqqında qərardan şikayət verilməsi

Azərbaycan Respublikasına immiqrasiyaya icazə verilməməsi haqqında qərardan Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət verilə bilər.[14]
Maddə 9. İmmiqrasiya haqqında vəsatətə təkrar baxılması

İmmiqrasiya haqqında vəsatət rədd edildikdə, təkrar vəsatətə bu Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş hallar aradan qalxdıqdan sonra baxıla bilər.[15]

Üçüncü fəsil

İmmİqrantların hüququİ vəzİyyətİ
Maddə 10. İmmiqrant statusu

Azərbaycan Respublikasında immiqrant statusu Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, bu Qanun və digər qanunvericilik aktları ilə müəyyən olunur.

Azərbaycan Respublikasında qanuni əsaslarla müvəqqəti yaşayan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə bu Qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikasında daimi yaşamaq hüququ (immiqrant statusu) verilir.

İmmiqrant statusu beş il müddətinə verilir. Bu müddət bitdikdən sonra əcnəbinin və vətəndaşlığı olmayan şəxsin müraciətinə əsasən daimi yaşamaq üçün verilmiş icazə beş il müddətinə uzadıla bilər. Uzadılmaların sayı məhdudlaşdırılmır.[16]

İmmiqrantlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün müəyyən edilən hüquq və azadlıqlardan istifadə edirlər və müvafiq vəzifələri yerinə yetirirlər.

Əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasında daimi yaşamaq hüququ (immiqrant statusu) verilməsi barədə qərar müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilir. İmmiqrant statusu almış şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsi verilir. Vəsiqənin təsviri, spesifikasiyası və nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.[17]
Maddə 11. İmmiqrasiyaya icazə alan əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına gəlməsi

Azərbaycan Respublikasına immiqrasiyaya icazə alan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikası Qanunu maddələri ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikası ərazisinə gələ bilər.

Azərbaycan Respublikasına daxil olduqda immiqrasiya edən əcnəbi və ya vətəndaşlığı olmayan şəxs (onunla gələn ailə üzvləri) mütləq tibbi müayinədən keçməlidirlər.

Bu Qanunun 7-ci maddəsində göstərilən hallar müəyyən olunduqda əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikası ərazisinə buraxılmalarından imtina olunur. [18]

Maddə 12. İmmiqrant statusu almış şəxslərin yaşayış yeri üzrə qeydiyyatı[19]

İmmiqrant statusu almış əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaşayış yeri üzrə qeydiyyata alınırlar.

İmmiqrant statusu almış şəxs yaşayış yerini dəyişdikdə 10 gündən gec olmayaraq yeni yaşayış yeri üzrə qeydiyyata alınması üçün müvafiq icra hakimiyyəti orqanına müraciət etməlidir.

Maddə 13. İmmiqrant statusunun ləğv edilməsi [20]

İmmiqrant statusu aşağıdakı hallarda ləğv edilir:[21]

1) saxta sənədlər və yalan məlumat əsasında Azərbaycan Respublikası ərazisində yaşamağa icazə aldıqda;

2) Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi və ya ictimai asayiş üçün təhlükə törətdikdə;[22]

3) Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq edildikdə. [23]

4) daimi yaşamaq üçün xarici dövlətə getdikdə;

5) il ərzində altı aydan çox Azərbaycan Respublikasının ərazisindən kənarda olduqda.[24]

Əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin immiqrant statusundan məhrum edilməsi və Azərbaycan Respublikası ərazisindən çıxarılması haqqında qərarı məhkəmə (hakim) qəbul edir.[25]

İmmiqrantların Azərbaycan Respublikası ərazisindən çıxarılması müvafiq qanunvericiliyə uyğun olaraq həyata keçirilir. [26]

İmmiqrantın Azərbaycan Respublikası ərazisindən çıxarılması haqqında qərar onun ailə üzvlərinə şamil edilmir. [27]

İmmiqrant məhkəmənin qərarı qanuni qüvvəyə mindikdən sonra 7 gün ərzində Azərbaycan Respublikası ərazisini tərk etmədikdə məcburi qaydada Azərbaycan Respublikası ərazisindən çıxarılır. İmmiqrantın Azərbaycan Respublikası ərazisindən məcburi çıxarılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur. [28]

İmmiqrant ağır və xüsusilə ağır cinayət törətdikdə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 52-ci maddəsi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının hüdudlarından kənara məcburi çıxarıla bilər. [29]

Bu maddənin birinci hissəsinin 3-cü bəndində nəzərdə tutulmuş immiqrantın Azərbaycan Respublikasının ərazisindən çıxarılması Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq həyata keçirilir. [30]

Dördüncü fəsil

Azərbaycan Respublİkasındaİmmİqrasİyanın dövlət tənzİmİ

Maddə 14. Azərbaycan Respublikasında immiqrasiyanın idarə edilməsi

Azərbaycan Respublikasında immiqrasiya müvafiq icra hakimiyyəti orqanı tərəfindən idarə olunur.

Maddə 15. İmmiqrasiya kvotası

Azərbaycan Respublikasına immiqrasiya sahəsində dövlət tənzimini həyata keçirmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən immiqrasiya kvotaları müəyyən edilir.

Hər yeni ilin başlanmasına üç ay qalmış müvafiq icra hakimiyyəti orqanı tərəfindən immiqrasiya kvotası müəyyən olunur.

Zəruri hallarda immiqrasiya kvotaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən məhdudlaşdırıla bilər. [31]

Maddə 16. İmmiqrantın yerli şəraitə uyğunlaşması

İmmiqranta öz arzusu ilə Azərbaycan dilinin, Azərbaycan Konstitusiyası və qanunlarının öyrənilməsi üçün imkan yaradılır.

Azərbaycan Respublikasında immiqrantların yerli şəraitə uyğunlaşdırılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Beşinci fəsil

Yekun müddəaları

Maddə 17. İmmiqrantların məsuliyyəti

Azərbaycan Respublikası qanunvericiliyini pozan immiqrant hüquqi məsuliyyətə cəlb olunur.

Azərbaycan Respublikasının hüdudlarından kənarda törədilən cinayət əməlinə görə Azərbaycan Respublikasının qanunvericiliyi və tərəfdar çıxdığı beynəlxalq müqavilələri ilə müəyyən edilən geri verilmədən imtina halları istisna olmaqla immiqrant cinayət məsuliyyətinə cəlb edilməsi və ya qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə təyin olunan cəzanın icrası üçün başqa dövlətə geri verilə bilər.

Maddə 18. Qanunun qüvvəyə minməsi

Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

**Bakı şəhəri, 22 dekabr 1998-ci il**

**№ 592-IQ**

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 5 oktyabr 2001-ci il tarixli 183-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 3, maddə 156)

2. 12 oktyabr 2001-ci il tarixli 203-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddə 695)

3. 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 57)

4. 30 aprel 2004-cü il tarixli 643-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 505)

5. 9 oktyabr 2007-ci il tarixli 430-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 11, maddə 1053)

6. 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701)

7. 2 fevral 2009-cu il tarixli 764-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 6 mart 2009-cu il, № 52, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 3, maddə 160)

8. 30 iyun 2009-cu il tarixli 858-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 28 iyul 2009-cu il, № 163)

QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 3-cü maddənin ikinci abzasdan "müvəqqəti və ya" sözləri çıxarılmışdır.

[2] 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 3-cü maddənin üçüncü abzasda "yaşamaq hüququ alaraq Azərbaycan Respublikasına gələn" sözləri "daimi yaşamaq üçün icazə verilmiş" sözləri ilə əvəz edilmişdir.

[3] 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 3-cü maddənin dördüncü abzas çıxarılmışdır.

[4] 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 4-cü maddənin birinci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

18 yaşına çatmış fəaliyyət qabiliyyəti olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasına immiqrasiya üçün müvafiq icra hakimiyyəti orqanına bilavasitə və ya Azərbaycan Respublikasının diplomatik nümayəndəliyi, yaxud konsul idarələrinin vasitəsilə vəsatət verə bilər.

[5] 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 4-cü maddənin üçüncü hissənin 3-cü bəndində "immiqrasiya edən" sözləri "immiqrant statusu almaq istəyən" sözləri ilə əvəz edilmişdir.

[6] 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 4-cü maddənin üçüncü hissəyə 7-ci bənd əlavə edilmişdir.

[7] 2 fevral 2009-cu il tarixli 764-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 6 mart 2009-cu il, № 52, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 3, maddə 160) ilə 4-cü maddəsinin üçüncü hissəsinə yeni məzmunda 8-ci bənd əlavə edilmişdir.

[8] 30 iyun 2009-cu il tarixli 858-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 28 iyul 2009-cu il, № 163) ilə 4-cü maddənin üçüncü hissəsinə 9-cu bənd əlavə edilmişdir.

[9] 30 iyun 2009-cu il tarixli 858-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (“Azərbaycan” qəzeti 28 iyul 2009-cu il, № 163) ilə 5-ci maddənin birinci hissəsində “altı” sözü “iki” sözü ilə əvəz edilmişdir.

[10] 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (“Azərbaycan” qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 5-ci maddənin ikinci hissəsindən “, immiqrasiyanın növlərini və müddətlərini” sözləri çıxarılmışdır.

[11] 30 aprel 2004-cü il tarixli 643-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 7, maddə 505) ilə 6-cı maddə çıxarılmışdır.
Maddə 6. İmmiqrasiya haqqında vəsatətlə bağlı rüsum

İmmiqrasiya haqqında vəsatət verildikdə qanunvericiliklə müəyyən olunmuş qaydada dövlət rüsumu ödənilir.

[12] 5 oktyabr 2001-ci il tarixli 183-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 3, maddə 156) ilə 7-ci maddənin 5-ci bəndinə "ağır" sözündən sonra "və ya xüsusilə ağır" sözləri əlavə edilmişdir.

24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (“Azərbaycan” qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 7-ci maddənin 5-ci bənd yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

5) həmin şəxslər son beş il ərzində qəsdən ağır və ya xüsusilə ağır cinayət etdiyinə görə məhkum olunduqda;

[13] 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (“Azərbaycan” qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 7-ci maddəyə 8-ci və 9-cu bəndlər əlavə edilmişdir.

[14] 9 oktyabr 2007-ci il tarixli 430-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007-ci il, № 11, maddə 1053) ilə 8-ci maddəsində “müvafiq” sözündən sonra “inzibati qaydada və (və ya)” sözləri əlavə edilmişdir.

[15] 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (“Azərbaycan” qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 9-cu maddənin mətni yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

İmmiqrasiya haqqında vəsatətə təkrar olaraq ilkin qərar qəbul edildikdən bir il sonra yenidən baxıla bilər.

[16]  24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 10-cu maddənin ikinci və üçüncü hissələr yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər immiqrasiya kvotalarına riayət olunmaqla bu Qanunla müəyyən edilmiş qaydada immiqrasiyaya icazə aldıqda Azərbaycan Respublikasına daimi və ya müvəqqəti yaşamağa gələ bilərlər və bu halda immiqrant statusu alırlar.

Kvotadan kənar immiqrant statusu aşağıdakı şəxslərə verilə bilər:

1) Azərbaycan Respublikasının vətəndaşı ilə yaxın qohumluğu olan və ondan Azərbaycan Respublikasına daimi yaşamağa gəlməyə dəvət alan əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə;

2) Azərbaycan Respublikasında daimi yaşayan şəxslə nikah bağlayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərə;

3) Azərbaycan Respublikası vətəndaşının himayəsində və ya qəyyumluğunda olan əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə;

4) Azərbaycan Respublikasının vətəndaşına himayəçilik və ya qəyyumluq edən əcnəbilərə və ya vətəndaşlığı olmayan şəxslərə;

5) elm, texnika və digər sahələrdə yüksək ixtisaslı mütəxəssislərə, incəsənət xadimlərinə və idmançılara.

[17] 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 10-cu maddənin beşinci hissə aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

İmmiqranta müvafiq icra hakimiyyəti orqanı tərəfindən onun statusunu təsdiq edən sənəd verilir. İmmiqrant statusunu təsdiq edən sənədin forması Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq edilir.

30 iyun 2009-cu il tarixli 858-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti  28 iyul 2009-cu il, № 163) ilə 10-cu maddənin beşinci hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə immiqrant statusu verilməsi barədə qərar qəbul edilir. Qərarın təsviri, spesifikasiyası və nümunəsi, habelə qərar blanklarının ciddi hesabat sənədi kimi uçotu qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

[18] 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 11-ci maddə çıxarılmışdır.

[19] 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 12-ci maddənin adında "İmmiqrantların" sözündən sonra "yaşayış yeri üzrə" sözləri əlavə edilmişdir.

24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 12-ci maddənin birinci hissə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

Azərbaycan Respublikasına yaşamağa gələn immiqrant (onun ailə üzvləri) Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən olunmuş qaydada qeydiyyata alınır.

30 iyun 2009-cu il tarixli 858-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 28 iyul 2009-cu il, № 163) ilə 12-ci maddə aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:
Maddə 12. İmmiqrantların yaşayış yeri üzrə qeydiyyatı

İmmiqrant statusu almış əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yaşayış yeri üzrə qeydiyyata alınırlar. Onlara müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasında daimi yaşayan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qeydiyyat vəsiqəsi verilir. Azərbaycan Respublikasında daimi yaşayan əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qeydiyyat vəsiqəsinin təsviri, spesifikasiyası və nümunəsi Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilir.

İmmiqrant yaşayış yerinin dəyişməsi haqqında üç gün ərzində müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir.

[20] 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 13-cü maddənin adı yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

İmmiqrantın Azərbaycan Respublikası ərazisindən çıxarılması

[21] 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 13-cü maddənin birinci hissəsinin birinci abzas aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

İmmiqrant aşağıda göstərilən hallarda immiqrasiyaya icazə ləğv olunmaqla Azərbaycan Respublikası ərazisindən çıxarılır:

[22] 5 oktyabr 2001-ci il tarixli 183-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 3, maddə 156) ilə 13-cü maddədə birinci hissənin 2-ci bəndi çıxarılmış və 3-cü bənd 2-ci bənd hesab edilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

2) cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş ağır cinayət əməli törətdikdə və həmin əmələ görə haqqında qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarıldıqda;

24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (“Azərbaycan” qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 13-cü maddənin birinci hissəsinin 2-ci bənd aşağıdakı redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

2) Azərbaycan Respublikasının dövlət təhlükəsizliyinin və ya ictimai asayişin təmin edilməsi məqsədi ilə.

[23] 30 dekabr 2003-cü il tarixli 568-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 2, maddə 57) ilə 13-cü maddənin birinci hissəsinə 3-cü bənd əlavə edilmişdir.

[24] 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (“Azərbaycan” qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə 13-cü maddənin birinci hissəsinə 4-cü və 5-ci bəndlər əlavə edilmişdir.

[25] 12 oktyabr 2001-ci il tarixli 203-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddə 695) ilə 13-cü maddənin ikinci hissəsində "müvafiq icra hakimiyyəti orqanı" sözləri "məhkəmə (hakim)" sözləri ilə əvəz edilmişdir.

[26] 12 oktyabr 2001-ci il tarixli 203-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddə 695) ilə 13-cü maddənin üçüncü hissəsi yeni redaksiyada verilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

Bu maddənin birinci hissəsinin 1-ci və 3-cü bəndlərində nəzərdə tutulmuş hallarda immiqrant Azərbaycan Respublikası ərazisindən çıxarılması haqqında qərar qəbul olunan vaxtından on gün müddətində rəsmi qaydada məlumatlandırılmalıdır. İmmiqrant qərarı aldıqdan sonra 30 gün müddətində Azərbaycan Respublikası ərazisini tərk etməlidir. İmmiqrant 10 gün ərzində bu qərardan məhkəmə qaydasında şikayət verə bilər. Bu halda Azərbaycan Respublikası ərazisini tərk etmə müddətləri məhkəmə qərarı qüvvəyə minən gündən hesablanır.

[27] 5 oktyabr 2001-ci il tarixli 183-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 3, maddə 156) ilə 13-cü maddədə dördüncü hissə çıxarılmış və beşinci və altıncı hissələr müvafiq olaraq dördüncü və beşinci hissələr hesab edilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

Bu maddənin birinci hissəsinin 2-ci bəndində nəzərdə tutulan immiqrantlar etmiş olduqları cinayətə görə təyin olunmuş cəzanı çəkdikdən sonra 30 gün müddətində Azərbaycan Respublikası ərazisini tərk etməlidir.

[28] 24 iyun 2008-ci il tarixli 658-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ("Azərbaycan" qəzeti 7 avqust 2008-ci il, № 173, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 8, maddə 701) ilə dördüncü hissədə "bu maddədə göstərilən müddətlər" sözləri "məhkəmənin qərarı qanuni qüvvəyə mindikdən sonra 7 gün" sözləri ilə əvəz edilmişdir.

[29] 5 oktyabr 2001-ci il tarixli 183-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, № 3, maddə 156) 13-cü maddəyə altıncı hissə əlavə edilmişdir.

12 oktyabr 2001-ci il tarixli 203-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, № 11, maddə 695) ilə beşinci hissə çıxarılmış, altıncı hissə beşinci hissə hesab edilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

İmmiqrant bu maddədə göstərilən müddətlər ərzində Azərbaycan Respublikası ərazisini tərk etmədikdə məcburi qaydada Azərbaycan Respublikası ərazisindən çıxarılır. İmmiqrantın Azərbaycan Respublikası ərazisindən məcburi çıxarılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.